# YUSİFOV NAİQ NƏSİR OĞLU



Naiq Yusifov 5 yanvar 1970-ci ildə Tovuz rayonunun Ağdam kəndində doğulmuşdur. 1987-ci ildə orada orta məktəbi bitirmiş, 1988-ci ildə sovet ordusu sıralarına çağırılmışdır. Hərbi xidmətini Gürcüstan Respublikasının Texakaya şəhərində yerləşən rabitə batalyonunda başa vurmuş və 1990-cı ildə vətənə qayıtmışdır. Bir müddət sonra yerli özünümüdafiə dəstəsinə üzv yazılmışdır. Onun ilk döyüşü "Çənlibel" deyilən yerdə olmuşdur. 1992-ci il martın 24-də Tovuz rayonunun Koxa-Nəbi kəndinə ermənilərin hücumu zamanı Naiq ermənilərin PDS-ni vurur, alova bürünmüş maşını görən ermənilər pərən-pərənə düşür. Qumbara qəlpəsindən yaralanır, düşmənin əlinə keçməmək üçün əlindəki qumbaranı sinəsinə sıxaraq qəhrəmancasına həlak olmuşdur. Tovuz rayonunun Ağdam kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə sıravi Yusifov Naiq Nəsir oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Vaxtilə təhsil aldığı Tovuz rayonu Ağdam kənd tam orta məktəbi 1993-cü ildən qəhrəmanın adını daşıyır. Həmçinin N.Yusifov haqqında sənədli film də çəkilmişdir.